**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor İrma Ratiani ilə görüşüb. AMEA Rəyasət Heyətində keçirilən görüşdə iki qurum arasında qarşılıqlı maraq doğuran məsələlər, ortaq layihələr ətrafında fikir mübadiləsi aparılıb, əməkdaşlıq perspektivləri müzakirə olunub.**

# Gürcü ədəbiyyatşünas AMEA-da



Akademik İsa Həbibbəyli Azərbaycan və Gürcüstan arasında bütün sahələrdə olduğu kimi, elm sahəsində də sıx əlaqələrin mövcud olduğunu bildirib. O, bu əlaqələrin müasir dövrün tələbinə uyğun yeni istiqamətlər üzrə inkişaf etdirilməsinin zəruriliyini qeyd edib. Akademik AMEA-nın Gürcüstan Milli Elmlər Akademiyası, eləcə də bu ölkənin digər elmi müəssisələri ilə sıx əməkdaşlıq etdiyini söyləyib. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutu ilə birlikdə həyata keçirdikləri layihə üzrə "Nizami Gəncəvi və Şota Rustaveli" monoqrafiyasının Bakıda, Tbilisidə və Kembricdə Azərbaycan, gürcü və ingilis dillərində kitab halında nəşr olunmasını xüsusi qeyd edib.

Professor İrma Ratiani səmimi görüşə görə AMEA prezidentinə təşəkkürünü bildirib, akademiyanın 80 illik yubileyi münasibətilə bu elm ocağının çoxminli kollektivini təbrik edib. O, rəhbərlik etdiyi müəssisənin fəaliyyət istiqamətləri barədə məlumat verərək deyib ki, bundan sonra da hər iki ölkənin milli və dövlətçilik maraqlarına cavab verən birgə tədqiqatların aparılmasında maraqlıdırlar.

Sonda qarşılıqlı kitab hədiyyələri təqdim olunub.

Görüşdə AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq elmi əməkdaşlıq şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, Gürcü Ədəbiyyatı İnstitutunun direktor müavini, filologiya elmləri doktoru, professor Maka Elbakidze və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Mehman Həsənli də iştirak ediblər.

*XQ*